Azərbaycan. № 67.- S.8.
**2 aprel 2024-cü il**

# Qərb Ermənistanı məhvə sürükləyir

"Qərb öz mənfəəti naminə Cənubi Qafqaz xalqlarının faciəsinə səbəb olacaq addımlar atır. Aprelin 5-də Brüsseldə keçirilməsi nəzərdə tutulan ABŞ-Aİ-Ermənistan müştərək konfransı da regionda yeni münaqişə ocağı yaratmaq məqsədinə xidmət edir. Konfrans çərçivəsində hərbi paktın yaradılması planı da Qərbin qərəzli mövqeyini bir daha sübuta yetirir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Azərbaycanla olan sərhəddə yerləşdirilən Aİ missiyasının əsl məqsədi hələ də məlum deyil: "Görəsən, Avropa İttifaqı bu sərhədlərin təhlükəsizliyindən əvvəllər niyə narahat olmurdu?! Bu missiyaçılığın özü birbaşa ikili standartlardan xəbər verir. Əks halda, Azərbaycanın sərhədkənarı əhalisi 30 il müddətində erməni terrorundan əziyyət çəkəndə də Aİ-nin missiyaçılıq mövqeyinin şahidi olardıq. Açıq-aydın ortadadır ki, Aİ və ABŞ-nin timsalında Qərb riyakarlığına, insan haqlarına hörmətsizliyə davam edir".

Deputat qeyd edib ki, hazırda regionda vəziyyət dəyişib, Aİ ölkələri Cənubi Qafqazda kommunikasiyalardan və tranzit əlaqələrindən məhrum olmaq qorxusuna düşüb Ermənistanı ələ almağa çalışırlar: "Aprelin 5-də Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen və ABŞ-nin Dövlət katibi Entoni Blinkenin iştirakı ilə Brüsseldə keçirilməsi planlaşdırılan birgə konfrans Cənubi Qafqazdakı mövcud siyasi tarazlığa ciddi şəkildə mənfi təsir göstərə bilər. Ona görə də ABŞ-nin və sözügedən təsisata üzv olan bir sıra ölkələrin Ermənistana hərbi yardım planları və keçiriləcək toplantının hərbi komponentləri ciddi narahatlıq doğurur. Konfransda hərbi paktın imzalanması regionda sülh quruculuğu səylərinə ciddi xələl gətirər".

Müşfiq Cəfərov vurğulayıb ki, Qərb Azərbaycanın yaratmağa çalışdığı inteqrasiya olunmuş, əməkdaşlıq mühitinin formalaşdığı Cənubi Qafqazı militarizasiya olunmuş və silahsursatla doldurulmuş, barıt çəlləyini xatırladan regiona çevirməyə çalışır: "Ermənistan isə bu prosesdə ənənəsinə sadiq qalaraq vasitə rolunda çıxış edir. Qafqazda yeni münaqişə ocağı yaratmaq məqsədinə xidmət edən bu addımlar İrəvanın ürəyincədir. Lakin Qərbin Cənubi Qafqazda ikinci cəbhə açmaq niyyəti Ermənistanı məhvə sürükləyəcək".

Deputat sözügedən konfransda Ermənistanla hərbi paktın imzalanacağı halda, regionda sabitliyin pozulacağını söyləyib. Müsahibimiz bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını əngəlləyən bu cəhdlər iflasa məhkumdur. İrəvan başa düşməlidir ki, bölgədə münaqişə vəziyyəti yaratmaq və yeni cəbhə açmaq məsələsində Qərbin oyuncağı rolunda çıxış etməklə heç nə qazana bilməyəcək. "Ermənistanın 5 aprel konfransında cəsarətlənərək regionda üçlü hərbi alyans yaratmaq üçün şərait qurması cavabsız qalmayacaq. Baş verənlərə görə Ermənistan və havadarları cavab verəcəklər", - deyə M.Cəfərov əlavə edib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***